# AŞIQ BALANI

**Moderato**




Belə balanı hay, bazarda həsir,
Belə balanı hay, bağda gül əsir,
Belə balanı hay, oğlan tələsir,
Belə balanı hay, aşıq balanı.

Belə balanı hay, dərdin güllərdə,
Belə balanı hay, qaldın əllərdə,
Belə balanı hay, salıbdır dərdə,
Belə balanı hay, aşıq balanı.

Belə balanı hay, bağçadan keçdim,
Belə balanı hay, suların içdim,
Belə balanı hay, mən özüm seçdim,
Belə balanı hay, aşıq balanı.